

■ Xəyalə Sevil

## ÇOXDANDI HƏDƏFDƏSƏN

Oxuduğum kitab kimi
Gözlərimdə rəfdəsən.
Söylədiyim hər cümlədə,
Hər sözdə, hər hərfdəsən.

Eşq aldı məni cənginə,
Çatdım könlümün dənginə.
Gözümün su səhənginə
Dolmusan ee, kefdəsən.

Tanı, əllərimi tanı,
Tanı əlimin vətəni.
Sən də sevəcəksən məni,
Çoxdandı hədəfdəsən.

## EŞQ ATIRAM

Yanağım quruyan kimi
Damcı-damcı yaş qatıram.
Sənsiz elə darıxıram...
Sənsiz belə baş qatıram.

Gözümün nəm tərəfinə,
Könlümün qəm tərəfinə,
Dünyanın sən tərəfinə
Allı-güllü eşq atıram.

Susma, gözlərin səs edir,
Duyğuların həvəs edir.
Ya mən, ya da mən, bəs edir?
Birini seç, püşk atıram.

## ÖZGƏSİYLƏ NƏFƏSLƏN

Sən düş mənim gözümdən,
Mən də düşüm həvəsdən.
Göz yaşımı yuvasından çıxarım,
Əsəbimi qəfəsdən.

Nə üzümü görmə mənim,
Nə səsimi eşitmə.
Özgəsiylə nəfəslən.
Əllərimi qulağıma
Elə tutub durmuşam,
Eşitmirəm, ha səslən...

Çıxıram bu oyundan.
Məhəbbətin gödək gəldi
Ürəyimin boyundan.
Get bir azca da bəslən.

## SƏNƏ DƏ ƏLVİDA

Mənim istədiyim bu deyildisə...
Sənə də əlvida!
Vurdum səni ürəyimin üzünə
Döyüldüsə...
Sənə də əlvida!

Küləklərə əl eyləyib saxlayın,
Küləklər aparsın məni.
Göy üzündən, yer üzündən,
Bu dünyanın hər üzündən
Qoparsın məni.
Burda hamı hamı kimi.
Yalanlar da eyni yalan,
O bunun davamı kimi...
Göz yaşlarım yanağımda veyildisə...
Sənə də əlvida!

## BİR DUA VAR DODAĞIMDA

Bir dua var dodağımda
Göy üzünə atmaq üçün.
Tanrı da bir dərd göndərib
Yaşayıb baş qatmaq üçün.

Bağlı otaqlar kimiyəm,
Sınıq budaqlar kimiyəm.
Nə ölü, nə sağ kimiyəm
Qayıdıram çatmaq üçün.

Mən səndən dönən deyildim,
Alışıb sönən deyildim.
Əyildim, vallah, əyildim
Mən səni ucaltmaq üçün.

Daha dönməz üzüm sənə,
Gecədi gündüzüm sənə.
Eh! Qalmadı lüzum sənə
Bu eşqi yaşatmaq üçün.

## GÖRÜNÜR...

Görünür,
Hayandan baxsaq görünür.
Bu ömür
Ayağı axsaq görünür...
Burda yenə gecələrin
Qaralıbdı qanı da,
Bütün pəncərələr bağlı
Yoxdu bir eyvanı da.
O ev mənim evimdi.
Burda yenə külək əsir,
Burda yenə yağışdı.
Yığışdır, İlahi, məni yığışdır.
O göyün üzündən
Kəs əllərimi,
Bu yerin üzündən
Ayağımı kəs.
Məni sevindir.
Görünür,
Bu yolun sonunda
Quyu görünür,
Quyuda
Gözümün suyu görünür.
Uzatmıram ömrümü də,
İlahi,
Yaman həvəsliyəm
Bəstə qoymağa.
Bir şəkil çəkdirib
Gedirəm daha.
Mən qəbir daşımın üstə qoymağa.

## YANAĞIMDA YER SALDIM

Bu əlacsız, bu kimsəsiz, bu yalnız,
Ürəyimin daxilinə bir saldım.
Gündüz qoydum gözlərimin üstünə,
Gecələri yanağımda yer saldım.

Ürək qurdum, hər gün sənə oyanan,
Bir həsrət var, sinəm üstən boylanan.
Gündə günəşlənən, ayda aylanan,
Tər-təmiz ömrümü mən nəzir saldım.

Kimsə bilməz, kimsə tutmaz adını...
Xatırlamaz və unutmaz adını,
Onu bil ki, başqasının qadını
Səni məhrəm ürəyinə sirr saldı.

## ÜRƏYİNİ YIĞIB GƏL

Qarayanız gecədən
Günəş kimi çıxıb gəl.
Uzaq yol çantasıtək
Ürəyini yığıb gəl.

Yolçudu baxışlarım,
Buzum, soyuğum, qarım.
Eh! Mənim göz yaşlarım
Üzümə yıxılıb, gəl.

Ocağam, gəl tüstümə,
Qucağam, gəl istimə.
Çağırıram, üstümə
Hamıdan çıxılıb gəl.

## BİLİRƏM AYRILIQ VAR...

Olmur!
Gözlərimdən düşüb gedənlər
Bir də ürəyimin başına gəlmir.
Hər şeyə həvəssiz,
Maraqsız belə
Yaşamaq mənim də
Xoşuma gəlmir.
Bir qəbir soyuğu gəzir canımda,
Öyrəşirəm ən ağır,
Ən yalquzaq dərdə də.
İçimdə sürüdüyüm
Tənhalıqdan bilirəm,
Bilirəm, ayrılıq var
Gələn bölümlərdə də.
Kiməm bu yer üzündə,
Kiməm, kiminəm, Allah?
Sən heç mənim olmadın,
Mən ki səninəm, Allah.
Yıxılmış ağacam,
Uçulmuş evəm.
Məni insan elə
Yenidən sevəm...

## ÜRƏYİNİ MƏNƏ ÇEVİR

Mən onu da bilirdim.
Onu da bilirdim ki,
O bəzəkli sözlərin
Üzü var, içi yoxdu.
Ürəyin var sevməyə,
Var, amma ki, o boyda
Ürəyin gücü yoxdu.
Mən onu da bilirdim.
Onu da bilirdim ki,
Sən mənim çin çıxmayan
Yuxum kimi uzaqsan.
Bircə yol ürəyinə toxuna bilmədiyim
Yaxın kimi uzaqsan.
Mən onu da bilirdim.
Onu da bilirdim ki,
Gözlərində həmişə
Şəklim gözəl görünür.
Bir xəyalam səni üçün...
Eh! Sənin ki, xəyalında
Nə xəyallar sürünür...
Gözlərini çək üzümdən,
Məni gözlərin sevir.
Bacarırsan...
Bacarırsan,
Ürəyini mənə çevir.

